# Bir ünvana döndüyümüz döngədən, Ayrı səmtə ayrı yollar var imiş...

**Bir təbəssümün məna çaları**

Vətən üçün, xalq üçün canından keçənlər ömrünü tək özləri üçün yaşamazlar. Onların həyatlarının mənası da elə ana, vətən, torpaq, xalq, insan, həyat, yaşamaq, əbədiyaşarlıq məfhumları yaşam kodeksinin əsasıdır. Məhz Təbriz də belə bir həyat tezisini yazanlardan biri idi.

Onun böyüdülmüş şəkli Qəbələnin mərkəzi küçələrindən birində, yaşayış binasının divarına vurulmuşdu. Hər gün işə gedib gələndə o gülümsər baxışlarla qarşılaşar, "salamlaşardıq". Şəkil hələ uzaqdan öz müsbət aurası ilə - təbəssüm dolu siması ilə hər gün şəhərin sakinlərini və qonaqlarını "qarşılayar", "yola salardı". Üzündə "donub" qalmış o təbəssümlə şəklin qarşısında dayanıb söhbət etmək, onun həyat xronikasını öyrənmək istərdi insan. Təbrizin üzündəki o xoş təbəssüm onun yarım qalmış arzularının zənginliyi idi. Bu təbəssüm ürəyində "nisgil dağı" ilə yaşayan ata və ananın yarasına bir məlhəm damcısı idi. İllərdən bəri sevgisini yaşayıb, gözəl bir ailə qurub, isti ocaq yaratdığı ömür gün yoldaşına həyata davam etmək üçün bir inam, güc simvolu idi. Bu təbəssüm onun can parçası olan, ona təyyarə ilə əsgəri xidmətinə - döyüş bölgəsinə "salam göndərən" körpə qızına olan bir ata sevgisinin sonsuzluğu idi. Onun həyat yolunun davamçısı olan Fatiməsinə varlığının və həmişəyaşarlığının həqiqət "cildi" idi. Xalqa baxışı olan bu təbəssüm xalqa sevgisi, sədaqət rəmzi idi. Bu təbəssüm igidliyin, qorxmazlığın bariz nümunəsidir. İndi o şəkil orada olmasa da şəklin vurulduğu və izi qaldığı o kiçik hissədən Təbriz həmişə boylanır...

**Müəllim hərbçi**

Hər bir insan ömrü bir dastandısa, hər igidin ömrü də bir igidlik salnaməsidir. Vərəqlədikcə də burada tarixi faktlarla rastlaşır, xalqın tarixi xronikasının zənginliyi ilə üzləşirsən. Axı hər bir igid oğul bu xalqın övladı, xalqın təcəssümüdür. Təbriz də qədim Qəbələnin ölümə "boy" verməyən oğullarından biridir. O, rayonumuzun Yemişənli kəndində 1993-cü ilin fevral ayının 16-da doğulmuşdur. O, Yemişənli kənd orta məktəbində, 1999 - 2008-ci illərdə orta təhsil almışdır. Təhsilini davam etdirmək istəyən Təbriz ali təhsil ala bilməsə də, Şəki Pedoqoji Kollecində ibtidai sinif müəllimi ixtisası üzrə təhsilini davam etdirmişdir. O, 2011-ci ildə kolleci bitirdikdən sonra həqiqi hərbi xidmətə çağrılmış, Sumqayıt şəhərində xidməti borcunu başa vurmuşdur. 2013-cü ildə hərbi xidmətini başa vurduqdan sonra hərbçi kimi xidməti fəaliyyətini davam etdirmişdir. O, 2015-2018-ci illərdə gizir rütbəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Təbriz könüllü olaraq döyüşlərdə iştirak etmişdir. O, Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə igidliklə döyüşmüşdür. Hər dəfə döyüşə ailəsi göz önündə - körpə qızının gülüşü, anasının, ömür-gün yoldaşının əlləri duada, atasının isə hər ürək döyüntüsündə Allaha ümid hissini duymuş və döyüşlərə onların xoşbəxt, qorxusuz həyat yaşamaları, Vətən torpaqlarının azadlığı uğrunda düşüncələri ilə getmişdi.



Həyatın yaşayış qayğılarından, müharibə dəhşətlərindən uzaq, körpəsinin çöhrəsində qəm-kədər izləri, qorxu hissi deyil, nikbinlik, qürur, sevinc görmək istəyi ilə daha da şücaətlə döyüşən Təbriz bu müharibənin zəfərlə bitəcəyinə inanırdı. Xalq ilə Ordunun, Ali Baş komandan ilə əsgər və döyüşçülərinin yalnız bir məqsədi vardır - torpaqların azad olunması! Fikir və əməl yekdilliyi qələbənin labüd olmasını hiss etdirirdi . Əsgər döyüşə qorxu hiss etmədən, qələbə ümidi və inadı ilə başlarsa, Zəfərə daha yaxın olduğunu Təbriz həm bir pedoqoq, həm də bir əsgər kimi bilirdi.

O, Füzuli uğrunda gedən döyüşlərdən birində şəhid oldu; həm də müharibənin qurtarmasına bir neçə gün qalmış... Şuşanı azad görmək istəyirdi, Zəfər bayrağının dalğalanmasını duymaq igid döyüşçünün arzusu idi. Ancaq xain düşmən gülləsinə noyabr ayının 5-də tuş gəldi... Atası Ramizin, anası Dilarənin, qardaşı Farizin, bacısı Gülnarənin, ömür-gün yoldaşı Ayselin dünyası qaraldı, ümidləri "pərən-pərən" düşdü, "qəm çələngi" ürəklərinə "büründü"... Bəs balaca Fatiməyə necə deyiləcək bu acı xəbər? Ata həsrəti onun uşaqlıq çağlarını nağıllı bir dünyaya çevirəcək, balaca qız o nağılın gerçəkliyini axtaracaq, gözləyəcək. Yaş üstünə yaş gəldikcə o nağılın elə nağıl olacağını, atasının qəhrəmanlıq dastanının real surəti olduğunu görəcək, onunla bir ömür boyu qürur duyacaqdı.

Anası ona atasının arzularından danışdıqca, Fatimə bu arzuları özünə "yaşıl işıq" seçərək həyatına davam edəcək .

Təbriz isə cismən olmasa da ruhən şad olacaq! Üzündə elə gənc ikən əbədi qalan, nikbinlik simvolu olan "gülümsərlik" Aysələ və Fatiməyə həyat yollarında bir inam işığı olacaq. Təbriz Qasımov doğulduğu məkanda, Yemişənli kəndində dəfn olunmuşdur. Ruhu isə göylərin maviliyində, azad olunmuş torpaqlarımızın seyrində...

**Həqiqət libaslı arzular**

Arzular arzulardan doğar. Təbriz ta uşaqlıqdan arzularını həyata keçirmək, həyata reallıqla baxmaq istəyirdi. Təhsilini davam etdirmək istədi, qismən arzusuna çatdı, müəllim adı qazandı, sevdiyi insanla ailə qurdu, övlad sevinci yaşadı, hərbçi işləmək istədi, işlədi də. Ata-anasına layiqli övlad, onların qüruru olmaq daim onun qəlbində, diqqətində olan başlıca arzu idi. Vətəninin təəssübkeş vətəndaşı, vicdanının səsinə səs verən bir insan olmaq, bacı-qardaşına fəxrli qardaş, ömür-gün yoldaşına sevgisinə layiq baş tacı, körpəsinə isə bir ömür boyunca ən gözəl ata adı bəxş etmək - əməli və insanlığı ilə bu adın təsdiqini aydınlatmaq Təbrizin arzusu... Ancaq o bilirdi ki, bütün bu arzular azad, bütöv torpaqları olan; 30 il 20 faiz torpaqları düşmən tapdaqları altında qalan bir vətənin zəfər tarixindən sonra həyata keçə bilərdi. Elə bu arzuları reallaşdırmaq üçün Təbriz və onun kimi oğullar qətiyyətlə döyüşdülər; öz canlarını qurban verdilər, şəhid oldular...

Təbrizin qəhrəmanlığı Ali Baş Komandan tərəfindən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu .

Arzularını isə onun əzizləri həyata keçirməyə çalışır. Hər bir vətənpərvər insanın qəlbində əbədi yaşayan, əbədilik, ölməzlik qazanaraq, zəfər tarixini yenidən yazaraq öz adını da tarixin qan yaddaşına yazdı Təbriz. Bu gün Aysel xanım onun arzularının davamçısıdır. O, Təbrizin həyat arzularını həyata keçirərək ona olan sevgisini yaşadır. Təbrizin yadigarı olan Fatiməni atasının adına layiq bir övlad kimi böyüdür, bütün çətinlikləri, mənəvi sarsıntıları qəlbinə gömərək həyata, yaşamağa davam edir. O, ali məktəb tələbəsidir. Fatimə ilə birgə Təbriz ocağının işığının daha gur yanması və ruhunun şad olması üçün onun arzularını reallaşdırmaq onun həyatının ən başlıca məyarı! ..

**BİBİXANIM.**

# Azərbaycanın aparıcı qüvvəsi

(Əvvəli 4-cü səhifədə).

tərzinə təsir etməklə yanaşı, milli kimlik və vətənpərvərlik anlayışına da yeni çalarlar gətirir. Dövlətin yaratdığı imkanlardan səmərəli istifadə edən gənclər ölkənin beynəlxalq nüfuzunun artmasına da mühüm töhfə verirlər.

Bu proses fonunda Azərbaycan gəncliyi həm milli dəyərlərə bağlılığı, həm də müasir dünyaya uyğunlaşma qabiliyyəti ilə seçilən yeni bir nəsil kimi formalaşır. Milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın kimliyini qoruyan əsas dayaqlar olub. Dilimiz, ədəbiyyatımız, musiqimiz, tariximiz və dövlətçilik ənənələrimiz Azərbaycan gənci üçün təkcə keçmişdən qalan miras deyil, həm də gələcəyə aparan yol göstəricisidir. Bu dəyərlər gənclərin xarakterini möhkəmləndirir, onlara məsuliyyət hissi aşılayır və onları vətənə daha sıx bağlayır.

Heç şübhəsiz ki, hər bir ölkənin gələcəyi onun gənclərinin inkişafından çox asılıdır. Bütün dövrlərdə gəncliyin mənəvi və fiziki sağlamlığı cəmiyyət üçün önəmli olub.

Əgər bir ölkədə gəncliyə yüksək diqqət və qayğı varsa deməli o cəmiyyətdə gənclər proqressiv, intellektual, mənəvi və fiziki baxımından sağlam olacaqlar. Gənclik böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir.

Hər bir gənc dövlətin diqqət və qayğısını yüksək qiymətləndirməli, onlar üçün yaradılan fürsət və imkanların dəyərini bilməlidir. Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur.

Azərbaycan gəncliyi xüsusilə son illərdə tarixi sınaqlardan üzüağ çıxaraq öz vətənpərvərliyini, milli ruhunu və dövlətə sədaqətini nümayiş etdirmişdir. 44 günlük Vətən müharibəsi dövründə gənclər həm döyüş meydanında, həm də informasiya cəbhəsində böyük fədakarlıq göstərmiş, ölkənin ərazi bütövlüyünün bərpasında mühüm rol oynamışlar. Bu, gəncliyin yalnız gələcəyin deyil, həm də bu günün aparıcı qüvvəsi olduğunu bir daha sübut etdi.

27 sentyabr tarixindən başlayan 44 gün ərzində davam edən Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı və işğal altında olan torpaqlarımız mənfur düşməndən azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycan gənci özünü tam sübut etdi. Rəşadətli Azərbaycan Ordusunun sıralarında hərbi xidmətə cəlb olunmuş gənclərimiz Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, əzəli torpaqlarımızın işğaldan azad olunması və tarixi Qələbəmizin əldə olunmasında cəsurluq, igidlik və yenilməzlik nümunəsi göstərdilər. Neçə-neçə qəhrəman əsgər və zabitlərimiz vətənin azadlığı uğrunda həyatından keçərək şəhidlik zirvəsinə ucaldılar. Neçə-neçə igidlərimiz sağlamlığını qismən itirdilər. Şəhidlərimizin hər birinin adı Azərbaycanın əldə etdiyi bu Zəfər tarixinə əbədi olaraq yazıldı. Xalqımız həmişə onların əziz xatirəsini uca tutacaqdır.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Bu yolda gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

**İlahə EYVAZLI.**

# Fevral ayı digər aylardan niyə qısadır?

"Qriqori təqvimi" və ya əvvəlki forması hesab olunan "Yuli təqvimi"ndə ən diqqət çəkən fevral ayındakı günlərin digər aylara nisbətən az olmasıdır.

Fevral ayı istisna olmaqla digər aylar ya 30, ya da 31 gündən ibarətdir. Yalnız fevral ayı 28 gündən (dörd ildən bir 29 gün) ibarətdir.

Yuli Sezarın göstərişindən əvvəl bir il 365 gün 6 saat hesablanıb. Qərara alınıb ki, ilin günlərinin tam olması üçün dörd il 365 gündən, bir il isə 366 gündən hesablansın. 366 gün 12 bərabər hissəyə bölünmədiyi üçün 6 ay 30 gün, 6 ay isə 31 gün müəyyən edilir. Sezarın əmri ilə 365 gün çəkən illərin son ayından 1 gün çıxılır. O zaman ilin son ayı fevral olduğu üçün bu ay 4 ildən bir 30, digər illərdə isə 29 gün hesablanır. Lakin, təqvimə görə, iyul ayı 31, avqust ayı isə 30 gün olub. Bunu qəbul edə bilməyən Oktavian Avqustun göstərişi ilə fevral ayından daha bir gün azaldılaraq avqust ayına əlavə edirlər. Nəticədə fevral ayındakı günlərin sayı 28 günə (dörd ildən bir 29 gün) düşür.

*Maraq dünyamız*

# Uzunömürlülüyün sirri

Cənubi Afrikada 128 il ömür sürən Johanna Mazibuko dünyanın ən yaşlı insanlarından biri kimi tarixə düşüb.

Milli.Az xəbər verir ki, onun uzun və sağlam həyatının sirri isə olduqca sadə qidalanma vərdişləri ilə əlaqələndirilir.

1894-cü ildə anadan olan Mazibuko ömrünün böyük hissəsini fermada, təbiətlə iç-içə keçirib. Emal olunmuş qidalardan uzaq duran qadın daha çox evdə yetişdirilən məhsullarla qidalanıb və aktiv həyat tərzi sürüb. Mütəxəssislərin diqqətini çəkən məqam isə onun uşaqlıqdan bəri süfrəsindən əskik etmədiyi iki əsas qida olub.

Mazibuko bildirib ki, gündəlik qidalanmasında təzə süd və təbii şəraitdə yetişən ispanaq xüsusi yer tutub. Onun sözlərinə görə, bu iki məhsul həm sümüklərinin möhkəm qalmasına, həm də həzm sisteminin düzgün işləməsinə kömək edib.

Uzunömürlülüyün sirri yalnız qidalanma ilə məhdudlaşmayıb. Yeddi övlad, 50 nəvə və nəticələrə sahib olan Mazibuko ailə bağlarının və xoşbəxt mühitin də sağlam həyata böyük təsir göstərdiyini vurğulayıb. O, stressdən uzaq, sevgi dolu həyatın insan ömrünü uzatdığını deyib.